**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIII buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIII выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Arts, XXXXIII edition, Baku, 2023*

## S Ə N Ə T Ş Ü N A S L I Q

**UOT 7**
**DOI: 10.52094/1524122.43.2023.24**

**Fuad Teyyub oğlu Məmmədov**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**
**Professor**

**Rəna Azər qızı Məmmədova**
**Sənətşünaslıq elmləri doktoru, professor**
**E-mail: renasarabskaya@mail.ru**

# İNCƏSƏNƏTİN QARŞILIQLI ƏLAQƏLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ FƏNLƏRARASI TƏDQİQATLARIN ROLU

**Xülasə:** Bu məqalə Azərbaycan humanitar elmində musiqi sənətinin qarşılıqlı əlaqələrinin baxılmasına həsr edilmişdir. Qeyd edilir ki, etnoloji, kulturoloji kimi yanaşmalar mədəniyyətlərin qarşılıqlı əlaqələrinin rekonstruksiyasının mühüm parametrlərini müəyyənləşdirir.

Müqayisəli tədqiqatın humanitar konteksti Azərbaycan incəsənətinin öyrənilməsinin çoxfunksionallığını stimullaşdırır.

**Açar sözlər:** kulturologiya, qarşılıqlı əlaqələr, incəsənət, tarix, genezis, təkamül

Müasir Azərbaycan humanitar elmi tədqiqatların dərinliyi və həcmi ilə fərqlənir. Sənətşünaslıq mədəniyyətin çox zəngin təcrübəsinə əsaslanır. Azərbaycan sənətşünaslığının ən aktual problemləri arasında milli özünəməxsusluq, Azərbaycan xalqının bədii yaradıcılığının dəyərləri problemləri irəli sürülür. Azərbaycan xalqının daimi dəyərləri olan milli mədəniyyətin əsaslarının öyrənilməsi müasir humanitar elmin kontekstində xüsusi əhəmiyyət kəsb edir. Qeyd edək ki, qarşılıqlı əlaqələr sisteminin iyerarxiyalılığı milli özünəməxsusluğun xüsusi çəkisi ilə müəyyənləşir.

Musiqi mədəniyyətinin milli özünəməxsusluğunun xüsusiyyətləri K.Kvitka kimi alim tərəfindən çox sərrast və dəqiq göstərilmişdir. K.Kvitkanın fikrincə, “bir çox konstruktiv elementlər öz əsasında coğrafi və mədəni cəhətdən yaxın xalqlar üçün ümumidir, musiqinin milli xarakteri bu elementlərin o qədər də müxtəlifliyində deyil, həm də digər xalqların musiqisini təşkil edən həmin

elementlərin nisbi gücündə əks olunur, yalnız digər kompleksdə və ya digər nisbətdə" [1, s.286].

Müasir mülahizəni də göstərim: "Mentallığın özəyini təşkil edən dəyərlər cazibənin özünəməxsus xətləridir – onlar milli mədəniyyətin empirik müxtəlifliyini vahid sistemli bütövə çevirir" (Kulturoloji lüğət).

Qanunauyğundur ki, Azərbaycan musiqisinin qarşılıqlı əlaqələri öz tədqiqat sahəsinə Azərbaycan xalq musiqisi təfəkkürünün genezisi və təkamülü problemlərini daxil edir.

Bu mənada diqqətəlayiqdir ki, müasir cəmiyyətdə hakim requlyativ mexanizmlər mədəniyyət hadisələrinin tədqiqini təkcə tarixi deyil, həm də funksional rakursda tələb edirlər. İncəsənətin morfoloji sisteminin milli xarakterinin kristallaşdığı prosesdə xalq musiqisinin təkamülünü nəzərdə tuturam.

Görkəmli folklorşünas, etnoqraf P.Q.Boqatıryov hesab edirdi ki, xalq mədəniyyətinin tarixi qatları sinxron təhlil tələb edir, yəni fəaliyyətin bir çox amillərini nəzərə alan təhlil.

Milli özünəməxsusluğun öyrənilməsi Azərbaycan bədii yaradıcılığının birliyinin və mədəniyyətin monolitliyinin dərk edilməsini təmin edir. Milli fenomen kimi Azərbaycan mədəniyyətinin dünya sivilizasiyasına verdiyi töhfənin tədqiqini müqayisəli təhlildən istifadə etməklə öyrənmək mümkündür. Mədəniyyətlərin dialoqları haqqında təsəvvürlərin dərinliyi, qarşılıqlı əlaqələr haqqında məlumatların genişlənməsi, şübhəsiz, tədqiqat üfüqlərini zənginləşdirir. Bu prosesdə müqayisəli təhlil mədəniyyətin mühüm tərkib hissələrini ayırır.

Müqayisəli təhlil incəsənət növlərinin qarşılıqlı əlaqələrinin problemləri kontekstində bir neçə mühüm aspektə malikdir. Bizim fikrimizcə, bu problemin dominant, vektor aspektlərinin vurğulanması daha məqsədəuyğundur. Aşağıdakı parametrlər konstantdırlar:

- bu gün alimlərin tədqiqat diqqətinin mərkəzində olan Azərbaycan humanitar elmində mədəniyyətlərin qarşılıqlı əlaqələrinin öyrənilməsinin problemləri;
- Azərbaycan incəsənətinin qarşılıqlı əlaqələrinin rekonstruksiyası bədii mədəniyyətdə genetikliyi, milli özünəməxsusluğu və universallığı, ümumiliyi aşkarlamağa imkan verir;
- müqayisə edilən mədəniyyətlərdə ümuminin və müxtəlifliyin müəyyən olunması səbəbini – yəni bu oxşarlıqların və müxtəlifliklərin ilkin impulslarının öyrənilməsinin zəruriliyinə əsaslanır.

Belə ki, məsələn, türk xalqlarının musiqisində genoformula sırasının tədqiqatına etnoloji yanaşma musiqi sənətini onun ilkin mənbələrində, formul,

tipoloji təzahürlərində rekonstruksiya etməyə imkan verir. Əlavə edək ki, Azərbaycan musiqi sənətinin bədii əlaqələrinin rekonstruksiyası arxeoloji işə bənzəyir, belə ki, bu proses ərzində mədəni qatlar açılır.

Müqayisəli etnoloji metoda əsaslanma imkan verir:

1. türk məkanının bədii mədəniyyətləri arasındakı əhəmiyyətli əlaqələri aşkarlamağa;
2. bu əlaqələrin tarixi, etnomədəni, estetik səviyyəsini ayırmağa;
3. Azərbaycan mədəniyyətinin milli özünəməxsusluğunun dominantını aşkarlamağa;
4. koordinasiya edən qarşılıqlı əlaqələri göstərməyə;
5. təhlil edilən mədəniyyətlərin universallığını və spesifikasını göstərməyə;
6. bu əlaqələrin perspektivliyinə baxmağa.

Humanitar elm Azərbaycan mədəniyyətinin və incəsənətinin öyrənilməsinin daha yeni aspektlərini sürətlə əhatə edir. Bir daha təkrar edirəm ki, ən çox aktual problemlər sırasında Azərbaycan incəsənətinin milli özünəməxsusluğu problemi durur, belə ki, uzun müddət milli özünəməxsusluq probleminə qeyri-müəyyən yanaşma onun həllinə də maneə yaradırdı. Bizim fikrimizcə, müqayisəli sənətşünaslığın metodologiyasında müraciət daha məqsədəuyğun olar. Belə ki, müəyyən nəzəri vektora malik olan türk dünyasının bədii mədəniyyətinin materialındakı tipoloji anlayışlar sistemi hər bir regionun mədəniyyətinin həm bütövlüyünü, həm də özünəməxsusluğunu açmağa imkan verir. Başqa sözlə, türkdilli xalqların incəsənətində universal prinsiplər fonunda hər bir mədəniyyətin özünəməxsus xüsusiyyətlərini tədqiq etmək mümkündür, belə ki, ənənəvi musiqi mədəniyyətində xalqın tarixi yaddaşı əks olunmuşdur.

Azərbaycan xalq musiqisinin milli özünəməxsusluğu əsrlərlə formalaşmışdır. Müqayisəli təhlil şübhəsiz ki, milli bədii mədəniyyətin özünəməxsusluğunun firmalaşması proseslərini açmağa imkan verir. Müqayisəli tədqiqatlar incəsənət növlərinin milli özünəməxsusluğu sahəsində nəzəri və metodoloji işləmələrin “fövqəlvəzifəsinə” tabedir.

Türk mədəniyyətinin öyrənilməsi onun ümumi kateqoriyalarının rekonstruksiyasına və bununla yanaşı Azərbaycan incəsənətinin milli xarakteristikaları haqqında elmi təsəvvürləri dərinləşdirməyə imkan verir. Bu, ümumi və fərdinin korrelyasiyasını əks etdirən elmi mövqeyin irəli sürülməsi ilə əlaqədardır. Türk musiqi mədəniyyətinin genoformulunun tədqiqi ilə əlaqədar spesifik aspektlərin yerləşdirilməsi məqsədəuyğundur, məlum olduğu kimi,

türkdilli xalqların mədəniyyətinin hər bir qolu öz fərdi xarakteristikasına malikdir.

Azərbaycan musiqisinin milli eyniliyinin öyrənilməsi problemləri XXI əsrin sənətşünaslığının metodoloji determinantları və Azərbaycan etnomədəniyyətinin öyrənilməsi problemləri ilə sıx bağlıdır.

Yuxarıda söylənilənlərə əsasən, sənətşünaslıqda fənlərarası yanaşma xüsusi əhəmiyyət kəsb edir. Belə ki, müasir sənətşünaslığın aktual və maraqlı problemləri arasında incəsənət əsərlərinin fənlərarası təhlilinin problemləri nəzərəçarpacaq yer tutur. Bədii mədəniyyətin fənlərarası parametrlər kontekstində öyrənilməsi bu gün humanitar tədqiqatın zəruri, əvəzedilməz komponentidir. Bununla əlaqədar müqayisəli fənlərarası təhlilin əhəmiyyətini qeyd edək. Məlum olduğu kimi, humanitar elmdə yeni ideyalar yeni materialın açılması, metodoloji yeniliklərlə perspektivli tədqiqat yollarının axtarışı və aşkarlanması nəticəsində yaranır. İnteqrasiya proseslərinin mühüm aspekti müqayisəli tədqiqatlara toxunur, bu da mühüm problemlərin, o cümlədən, müqayisəli təhlil ilə bağlı problemlərin öyrənilməsini optimallaşdırmağa imkan verir.

Müqayisəli təhlilin problemləri Azərbaycan humanitar elmində getdikcə daha çox möhkəm mövqe əldə edir. Bu gün onlar təkcə sənətşünasları deyil, həm də etnoqrafları, etnoloqları, kulturoloqları, filosofları məşğul edir. Bu da qanunauyğundur, belə ki, müqayisəli təhlil sahəsində etnomədəniyyətin öyrənilməsi fənlərarası yanaşmanın kifayət qədər mürəkkəb konqlameratıdır.

Müqayisəli tədqiqatın humanitar konteksti Azərbaycan incəsənətinin öyrənilməsinin çoxfunksionallığını stimullaşdırır. Kontekstli, semantik, struktur funksiyaları nəzərdə tuturam. Belə ki, məsələn, kulturologiya incəsənətin universallıqlarını, onun vahid bədii məzmununu, üslub konkretliyini, bədii təcrübə parametrlərini optimal səviyyədə açmağa imkan verir. Kulturologiya türkdilli xalqların musiqi mədəniyyətində prioritet konstantların açılmasında mühüm vektora çevrilir.

Azərbaycan incəsənətinin öyrənilməsində humanitar paradiqma kimi biliklərin inteqrasiyası haqqında müqayisəli təhlilin determinantları çıxış edir. Komparativistika, etnomusiqişünaslıq tədqiqatın ön planına keçir. Bunlar elmi axtarışları optimallaşdırmağa imkan verir, Azərbaycan bədii mədəniyyətinin öyrənilməsində yeni yanaşmaların işlənilməsinin effektli katalizatoru olur.

Musiqi türkologiyasının əsas vəzifələri və ideyaları tarixi kulturologiyanın ideyalarına yaxındır. Belə ki, incəsənətin qarşılıqlı əlaqələrinin tədqiqində kulturologiyanın rolu aşağıdakılardan ibarətdir:

1. əlaqələrin bütövlükdə mədəniyyət kontekstində tarixi və nəzəri aspektlərdən baxılması;
2. kulturologiya estetikanı, sənətşünaslığı, incəsənətin ümumi nəzəriyyəsini üzvi surətdə birləşdirir. Beləliklə, yeni keyfiyyətin ümumi monolitliyi yaranır;
3. korrelyasiya olunan bədii strukturların funksional sırası açılır;
4. əlaqələrin perspektivi mədəniyyətlərin dialoqu səviyyəsində baxılır;
5. mədəniyyətlərin tarixi-genetik qatları ayrılır və aşkarlanır, tədqiqatın fənlərarası "sahəsi" genişlənir;
6. humanitar biliyin təcridi aradan götürülür;
7. kulturoloji konstant kimi tədqiqatın müqayisəli metodlarının istifadəsi Azərbaycan mədəniyyətinin spesifik determinantlarını ümumiləşdirməyə və kodlaşdırmağa imkan yaradır;
8. müasir humanitar elmdə dünyanın çoxölçülü mənzərəsinin yaradılması.

Etnomusiqişünaslığın konseptual şaxələri idealda fənlərarasıdır. Belə ki, nəzəri təhlil müqayisəli-tipoloji metodun kulturoloji dominantları ilə, Azərbaycan musiqisinin inkişafının tarixi mərhələlərinin təhlili isə onun etnoloji determinantları ilə yaxınlaşır. Həmçinin, qeyd edim ki, bazalı fənlərarası anlayışların istifadəsi müxtəlif humanitar elmlərdə aktualdır və müxtəlif bilik sahələrinin qarşılıqlı əlaqəsində metodoloji əsas kimi işlədilə bilər.

Belə ki, sənətşünaslığın konkretikası ilə dolu kulturologiya milli xüsusiyyətlərin aşkarlanmasına imkan verir.

Azərbaycan musiqi mədəniyyətinin fənlərarası aspektdə öyrənilməsi tədqiqatların rakursunu digərləri ilə yanaşı həm də mədəniyyətin etnoloji aspektlərinə tərəf də yönəltdi. Bədii yaradıcılığının etnoloji tədqiqinin metodoloji məsələləri alimlərin diqqət mərkəzində durdu. Qeyd etmək lazımdır ki, bu məsələlərin mərkəzində müqayisəli təhlil yer aldı. Bundan əlavə, müqayisəli işləmələr biliklərin fənlərarası səviyyəsini əldə etdi, belə ki, məhz müqayisəli təhlil bədii mədəniyyətin çoxvektorlu təhlilini təmin edir.

Bədii mədəniyyətin inteqral əsaslarının tədqiqi təkcə xalqın etnogenezi haqqında təsəvvürlərin mənbəyi kimi incəsənətin öyrənilməsinin qanunauyğunluğunu, milli eyniyyətin və mədəni özünəməxsusluğun tərkib hissəsini deyil, həm də türk dünyası məkanında universal dəyərlərin və regional diminantların öyrənilməsini göstərdi.

## Ədəbiyyat siyahısı:

1. Гошовский В. У истоков народной музыки славян. Очерки по музыкальному славяноведению. М. Сов. композитор, 1971.

2. Кулиева С.Ш. Культурологические аспекты межвидовых связей в искусствесредневекового Азербайджана// Автореферат диссертации на соискание ученой степени доктора философии по искусствоведению. Баку, 2018.
3. Ахмедова Х. Роль искусства в процессе глобализации. Баку, Элм, 2011.
4. Проблемы методологии современного искусствознания. М., Наука, 1989.

**Фуад Теюб оглу Мамедов**
**Роль междисциплинарных исследований в изучении взаимосвязей искусств**

**Резюме:** Данная статья посвящена рассмотрению взаимосвязей музыкального искусства в азербайджанской гуманитарной науке. Подчеркивается, что такие подходы как этнологический, культурологический определяют важные параметры реконструкции взаимосвязей культур.

Гуманитарный контекст сравнительного исследования стимулирует многофункциональность изучения азербайджанского искусства.

**Ключевые слова:** культурология, взаимосвязи, искусство, история, генезис, эволюция

**Fuad Teyyub oghlu Mammadov**
**The role of interdisciplinary researches in the study of arts intercommunication**

**Summary:** This article is devoted to the consideration of intercommunications of musical art in Azerbaijan humanitarian science. There is accentuated that such approaches as ethnological and culturological determine important parameters of reconstruction of communications of cultures.

Humanitarian context of comparative research stimulates multifunctioning of the study of Azerbaijan art.

**Key words:** culturology, interconnections, art, history, genesis, evolution

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25. 09. 2023**